Sort Tərəvəzçilik Elmi-Tədqiqat İnstiutunda Qaratağ-256 sortu ilə Ottava-30 sortunun çarpazlaşmasından alınmışdır. Sort 2017-ci ildə respublikada rayonlaşdırılmışdır.

Kolu adi, determinant formalı, hündürlüyü 50-75 sm, güclü yarpaqlanan, şaxələnən və tüksüzdür.Yarpağın səthi orta qırışıqlı, zəif sallaqlı, adi formalı, orta uzunluqda (6-11 sm) olmaqla rəngi açıq yaşıl, rənginin səciyyəsi parlaqdır. Çiçək salxımı sadə, 6-7 yarpaqdan sonra əmələ gəlir. Salxımların qırılma səciyyəsi zəif, salxımda çiçəklərin sayı çoxdur (5-6). Çiçək salxımının tipi buğumlu fertildir.

Meyvələri yumru, diametri orta, səthi hamar, yetişməmiş meyvənin rəngi ağımsov-yaşılımtıl, yetişmiş meyvənin rəngi qırmızıdır. Meyvənin qabığı parlaqdır. Meyvədə yuvaların sayı 4-5, yerləşməsi düzgün, çat əmələ gəlmir. Toxum meyvədə ortadır, 50-dən 125-ə qədər olur.

Sort ortatezyetişəndir. Kütləvi çıxışdan ilk meyvənin yetişməsinə kimi 108-110 gün keçir. Hektardan ümumi məhsuldarlıq 624,4-633,9 sen/ha-dır. Bir meyvənin kütləsi 180,0-190,0 q-dır.

Sort abiotik amillərə, nəqliyyata və saxlanmağa davamlıdır. Sort təzə halda yemək üçün və konserv sənayesində istifadə üçün nəzərdə tutulur. Meyvədə quru maddənin miqdarı 5,7-5,9 %, ümumi şəkər 4,2-4,3 %, ümumi turşuluq 0,29-0,32 %, vitamin C 35,0-36,5 mq%-dir.

Azərbaycan-94 sortu fuzarioz soluxmasına davamlıdır.

Sort yarandığı illərdən Abşeron və BZT Stansiyalarında sınaqdan keçirilmiş və hər hektardan 624,4-633,9 sentner məhsul vermişdir.

Pomidor istilik və işıqsevən bitkidir. Bitkilərin normal boy inkişafı üçün 22^0-24^0C temperatur tələb olunur. Çox vaxt 15^0C və daha aşağı temperaturda çiçəklənmə, 10^0C və daha aşağı temperaturda isə böyümə prosesləri dayanır. 35^0C-dən yüksək temperaturda, bitkilərin boy və inkişafı zəifləyir. Bitki üçün torpağın optimal nəmliyi 75-80% hesab edilir. Pomidor müxaniki tərkibcə yügül torpaqlarda yaxşı becərilir. Çiçəkləmədən 35-40 gün sonra məhsulu yığılır.

Vegetasiya müddətində 2-3 dəfə kultivasiya çəkilməli, bitki araları 4-5 dəfə

alaqdan təmizlənib, yumşaldılmalı və bitkinin boğazı doldurulmalıdır. Bitkiyə 1 dəfə yemləmə əkildikdən 10-12 gün sonra, 2-ci yemləmə isə meyvə əmələ gəlmə zamanı verilməlidir.

Pomidor toxumları səpindən 4-5 gün əvvəl 5%-li xörək duzu məhlulunda ağırlığına görə seçilməli, təmiz su ilə yuyularaq qurudulmalıdır. Səpilən toxumun əkin keyfiyyəti ən azı 96-98% olmalıdır.

Cücərtilər əmələ gəldikdən sonra şitillikdə havanın temperaturu 4-5 gün müddətində 13-16^{0}C, sonralar isə 20-22^{0}C həddində saxlanılır. Əkinə 3-5 gün qalmış şitillik daim havalandırılır.

Meyvədə toxumun miqdarı ortadır və 1000 ədəd toxumun çəkisi 3,0 q-dır. 1 ton meyvədən 3,0-3,5 kq toxum istehsal olunur. Sortun toxumları adi şəraitdə cücərmə qabiliyyətini 3-5 il saxlaya bilir.

Azərbaycan Respublikası
Kənd Təsərrüfatı Nazirliyi
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

Pomidor AZƏRBAYCAN-94 sortu